## Həmən Həşimqızı Əkbərova

### Bayatılar -1

Dərdi sinə,
Götürməz dərdi sinə.
Soyut barı qəlbimi,
Qoyma ki, dərd isinə.

Daş yandı,
Sübh tezdən o baş yandı.
Dodağından ah qopdu,
Gözlərimdə yaş yandı.

Bəxti nə,
Taleyi nə, bəxti nə.
Püşk atılanda düşüb,
Namərd mərdin bəxtinə.

Kür alardım,
Araz yox, Kür alardım.
Bəxt məni əzizləsə,
Əllərdə gül olardım.

Gözəllərə,
Dikilib göz əllərə.
Çox da bel bağlama sən,
Ev yıxan gözəllərə.

Gözə bax,
Qaşa yox, o gözə bax.
Qəlb oxumaq istəsən,
Sənə baxan gözə bax.